.KASPI.AZ 21 aprel 2016

# Xalq artisti Nəsibə Zeynalovanın xatirəsi yad olunub



20 aprel görkəmli gülüş ustası, milli teatr və kino sənətimizin unudulmaz siması, Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı Nəsibə Zeynalovanın doğum günüdür.

Bu münasibətlə, Mədəniyyət və Turizm Nazirliyinin, paytaxtın teatr ictimaiyyətinin nümayəndələri Nəsibə xanımın əziz xatirəsini anmaq üçün onun doğum günündə Fəxri xiyabandakı məzarını ziyarət ediblər. Sənətkarın məzarı üstünə tər çiçəklər düzülüb, xatirəsi ehtiramla yad olunub.

Mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, bu il ərzində Nəsibə Zeynalovanın 100 illiyi dövlət səviyyəsində və ölkə miqyasında qeyd ediləcək. Sənətkarın yubileyi ilə bağlı bölgələrimizdəki mədəniyyət ocaqlarında da tədbirlər təşkil olunacaq. Ədalət Vəliyev Nəsibə xanımın ailəsinin xahişi nəzərə alınaraq, əsas yubiley tədbirinin bu ilin noyabrında Bakıda keçiriləcəyini vurğulayıb.

Görkəmli aktrisanın həyat yoluna nəzər salan nazir müavini söyləyib ki, Nəsibə Zeynalova çox çətinliklərdən keçərək sənətə gəlsə də, aktrisa kimi çox tez bir zamanda böyük şöhrət tapıb. 1960-cı ildə respublikanın Əməkdar artisti, 1967-ci ildə Xalq artisti fəxri adlarına, 1974-cü ildə Azərbaycanın Dövlət mükafatına layiq görülüb. Azərbaycan səhnəsinin anası, qayınanası adlandırılan aktrisa kinoda və teatrda, televiziyada onlarla obraza can verib.

Ədalət Vəliyev çıxışının sonunda bildirib ki, mən Mədəniyyət Nazirliyində çalışmağa başladığım vaxtdan ta Nəsibə xanımın ömrünün sonunadək onunla ünsiyyət saxlamışam, aramızda bir ana-oğul münasibəti var idi. Dəfələrlə onun mənzilində qonaq olmuşam. Ulu öndərimiz Heydər Əliyev də Nəsibə xanımı çox sevirdi. Hansısa teatr tamaşasına baxdığı zaman tamaşaçılar arasında Nəsibə xanımı da görmək istəyirdi. Biz də həmişə Nəsibə xanımı həmin tədbirə dəvət edirdik. Nəsibə xanım özündən sonra böyük yaradıcı irs qoyub. Amma mən hesab edirəm ki, onun yaradıcılığının ən uca zirvəsi - oğlu Cahangir Novruzovdur. Böyük istedad sahibi olan Cahangir müəllim bu gün qardaş Türkiyədə çalışır və yenə də teatra xidmət edir.

Sonra çıxış edən Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədri, Akademik Milli Dram Teatrının bədii rəhbəri və direktoru, Xalq artisti Azər Paşa Nemətov böyük sənətkarla bağlı xatirələrini söyləyib: "Heç yadımdan çıxmır. O zamanlar Milli Teatr Günü qeyri-rəsmi şəkildə bayram edilirdi. Təşkilatımız "Teatr xadimi" qızıl medalını təsis etmişdi və həmin medalın ilk sahibi Nəsibə xanım oldu. O, ağır xəstə idi, yataqdan qalxa bilmirdi. Buna görə də həmin mükafatı nəvəsi Nəsibəyə təqdim etdik. Nəsibə xanım həmin medalı alanda çox sevinibmiş. O, son mükafatını alandan sonra cəmi bir neçə saat yaşadı. Biz çox şadıq ki, həmin medalı Nəsibə xanıma çatdırıb onu sevindirə bilmişdik. Hazırda Teatr Xadimləri İttifaqı Nəsibə Zeynalova haqqında kitab hazırlayır. Həmin kitab Azərbaycan, ingilis və rus dillərində çap ediləcək. Əsas yubiley tədbiri ərəfəsində sizin hamınızı həmin kitabın təqdimatına dəvət edəcəyik. Mən Nəsibə xanımın xatirəsinə göstərilən qayğı və ehtirama görə hər kəsə, ilk növbədə ölkə Prezidenti cənab İlham Əliyeva təşəkkür edirəm".



Uzun illər Nəsibə xanımla televiziya tamaşalarında çıxış etmiş, onunla eyni filmdə tərəf-müqabil olmuş Xalq artisti, professor İlham Namiq Kamal da görkəmli aktrisa barədə fikirlərini bölüşüb: "Azərbaycanın elə bir ucqar kəndi yox idi ki, Nəsibə xanım orada çıxış etməsin, öz pərəstişkarları ilə görüşməsin. Nəsibə xanım öz xalqı ilə fəxr edən, onun acısı və sevinci ilə yaşayan sənətkar idi. Mən xoşbəxtəm ki, Nəsibə xanımla tarixə düşən eyni filmdə çəkilmişəm. Çəkiliş zamanı mən onun hər kəsə ana qayğısı bəslədiyini hiss etdim. Nəsibə xanım dünən də var idi, bu gün də var, sabah da olacaq. Qəbri nurla dolsun".

Sonda böyük aktrisanın nəvəsi Nəsibə Əsgərova ailəsi adından Nəsibə Zeynalovanın xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına, Mədəniyyət və Turizm Nazirliyinə, Musiqili Teatrın kollektivinə və anım mərasiminin iştirakçılarına təşəkkürünü bildirib.